*Əyyub Şırlanlı,*
*şair-publisist, AYB-nin üzvü,*
*əməkdar müəllim*



# Anam Şuşa, mən sənə qovuşmağa gəlmişəm...

*Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada 12-13 mayda keçirilmiş "Xarıbülbül" Musiqi Festivalında iştirak etmək mənə də qismət oldu. Diz üztə əyilib torpağı öpdüm və dedim:*

*Anam Şuşa, ayrılıq həsrəti sona çatdı,*
*Gözlərindən öpməyə-görüşməyə gəlmişəm.*
*Səni bizə bəxş edən Ali Baş Komandanla,*
*Qəhrəmanlıq tarixin yazan ər oğullarla,*
*Səndən ötrü can vermiş müqəddəs şəhidlərlə,*
*Düşmənin qabağında əyilməz qazilərlə...*
*Sevincimi, arzumu bölüşməyə gəlmişəm!*

*İnsanı məftun edən füsunkar yaylaqlardan,*
*Gül-çiçəkli çöllərdən, cüyürlü oylaqlardan,*
*Ürəyin atəşini söndürən bulaqlaqdan,*
*Nəhirli şəlalədər, naxışlı çaylaqlardan,*
*Pənahdan bizə qalan möhtəşəm qalalardan,*
*Düşmənin ürəyinə ox olan Qarabağdan...*
*Anamız Natəvanı soruşmağa gəlmişəm!*

*Güclülər qucağında "yazıq", "məzlum" görünən,*
*Hiylənin, xəyanətin pərdəsinə bürünən,*
*Yollarda, yarqanlarda ilan təki sürünən,*
*Yer kürəsin dolanıb qapı-qapı dilənən,*
*Ağdamı, Füzulini, ... xarabaya çevirən,*
*Günahsız Xocalını qan gölündə batıran...*
*İşğalı erməniylə vuruşmağa gəlmişəm!*

*Yerində külü qalmış müəddəs sarayıma,*
*"Qırxqız"ıma, Kirsimə, Qarğar adlı çayıma,*
*Oğuz babamdan qalmış kitabəmə, soyuma,*
*Cıdırda nəvəm üçün saxladığım toyuma,*
*Dədəm Qorquddan gələn igid Beyrək boyuna,*
*Dünyanı yuxusundan oyadan harayıma...*
*Atamın ocağına qovuşmağa gəlmişəm!*

ədalət.- 2021.- 17 iyun.- S.6.